UOT 37.01.

***Əzizə Fuad qızı Qasımova,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNDƏ AZƏRBAYCAN TARİXİ KURSLARININ TƏDRİSİNDƏ İQTİSADİ MƏZMUNLU MÖVZULARIN ÖYRƏDİLMƏSİ

***Азиза Фуад гызы Гасымова,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПРЕПОДАВАНИЕ ТЕМ ЭКОНОМИЧЕСКОГО СОДЕРЖАНИЯ НА КУРСАХ ИЗУЧЕНИЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ

***Aziza Fuadı Gasimova,***
*Azerbaijan State Pedagogical University*

# TEACHING ECONOMIC CONTENTS ON COURSES STUDYING THE HİSTORY OF AZERBAIJAN İN SECONDARY SCHOOLS

**Xülasə:** Məqalədə mövzunun aktuallığı əsaslandırılıb. Ümumtəhsil məktəblərində Azərbaycan tarixi kurslarının tədrisində iqtisadi məzmunlu mövzuların imkanları araşdırılıb. Araşdırılmış mövzuların tədrisi nümunələrində sxemlərdən, cədvəllərdən, diaqramlardan istifadənin metodları müəyyənləşdirilib.
***Açar sözlər:*** *iqtisadiyyat, sosial-iqtisadi həyat, interaktiv təlim metodları, sxemlər, cədvəllər, dövlətlər, təsərrüfat*

**Резюме:** В статье обоснована актуальность темы. Изучены возможности тем экономического содержания при преподавании курса Истории Азербайджана. На примере исследаванных тем определены методы использования схем, таблиц, диаграмм.
***Ключевые слова****: экономика, социально-экономическая жизнь, интерактивные методы обучения, схемы, таблицы, государства, хозяйство*

**Summary:** The relevance of the subject has been substantiated. The possibilities of economical topics in the study of Azerbaijani history courses has been studied in general schools. Methods of use of schemes, tables, diagrams have been identified in the syllabus.
***Key words:*** *industry, socio-economic life, interactive training methods, schemes, tables, states, farm*

Tarix fənni şagirdlərin vətənə layiqli bir şəxsiyyət kimi formalaşmasında əhəmiyyətli mövqeyə malikdir. Şagirdlər ilk dəfə tarix dərsliyi ilə 5-ci sinifdəki "Azərbaycan tarixi" kursunda tanış olurlar. 5-ci sinifdə şagirdlər: "Tarix nədir? O, nədən bəhs edir? Maddi və yazılı abidələr nədir?" suallarına cavab tapırlar. 5-ci sinifdə şagirdlər əmək alətlərinin nədən hazırlandığını öyrənirlər.

Məlum olduğu kimi, 5-ci sinifdə tətbiq edilən "Azərbaycan tarixi" kursu tarix təliminin əsas kursları sırasına daxil deyil. Bu kurs tarix tədrisinə hazırlıq məqsədi daşıyır" (1, s. 5-7). Tarix dərslərində sosial-iqtisadi məzmunlu mövzular böyük əhəmiyyət kəsb edir. Müəllim hər hansı mövzunu tədris edərkən onun sosial-iqtisadi vəziyyətinə da toxunmalıdır. Müəllim Azərbaycan tarixi dərslərində sosial-iqtisadi məzmunlu mövzuları keçərkən siyasi və ictimai həyatın sosial-iqtisadi həyata göstərdiyi təsiri mütləq izah etməli, fəndaxili və fənlərarası əlaqədən istifadə etməlidir. Müxtəlif metodların tətbiq olunması ilə keçirilən dərs şagirdlərin marağına səbəb olur və onlar səbirsizliklə həmin dərsin keçilməsini gözləyirlər. Tarix dərslərinin dərsdənkənar və sinifdənxaric tədbirlərlə əlaqələndirilməsi şagirdlərin elmi dünyagörüşünün formalaşdırılmasına motiv yaradır. İqtisadi biliklərin verilməsində yeni təlim texnologiyalarından istifadə şagirdlərə təkcə bilik vermir,

eyni zamanda, həyatı bacarıqlar da aşılayır. Bildiyimiz kimi, hər hansı bir dövlətin güclü, qüvvətli olması onun sosial-iqtisadi vəziyyətinin yaxşı olmasından çox asılıdır. Dövlətin sosial-iqtisadi vəziyyəti nə qədər yüksək olarsa, həmin dövlət bir o qədər güclü olur. Bu baxımdan şagirdlərə sosial-iqtisadi məzmunlu mövzular öyrədilərkən ümumiləşdirilmiş sxemlərdən, cədvəllərdən istifadə edilməlidir.

"VI-XI siniflərdə istifadə olunan tarix dərsliklərinin təhsil-tərbiyə, inkişafetdirici vəzifələrinin qısa xarakteristikası, onların arasındakı ardıcıllıq və varislik gözlənilib" (2, s. 116). 5-ci sinifdə tədris olunan "Azərbaycan tarixi" kursu tariximizin bütün dövrlərini özündə ehtiva edir. Dərsliyin həm tərbiyəvi, həm də təhsil baxımından əhəmiyyəti böyükdür.

VI sinif üçün Azərbaycan tarixi dərsliyində iki növ faktlar daxil edilib: tək-tək tarixi prosesin pillələri və bir-birinə oxşar olub, dəfələrlə təkrar olunan, dövr üçün tipik olan faktlar" (3, s. 7-8). Bu dərslikdə tarixi-xronoloji faktlar, tarixi anlayışlar, tarixi coğrafi materiallar yetərli şəkildə əks olunub. Ümumtəhsil məktəblərinin VI sinif üçün Azərbaycan tarixi dərsliyində şagirdlər "Mannanın təsərrüfatı və mədəniyyəti" ilə tanış olurlar.

"Manna ərazisində zəngin dəmir filizi və qiymətli əlvan metal yataqları olduğuna görə burada metalişləmə və zərgərlik işində böyük uğurlar qazanılmışdır" (3, s. 67). Şagirdlər Mannada sənətkarlığın, toxuculuğun, boyaqçılığın, təsviri sənətin inkişaf etdiyini öyrənirlər. Dərsdə, həmçinin, Həsənli yaşayış yerinin qalıqları və Ziviyədən tapılmış qızıl camın şəkilləri də verilmişdir. "Manna ərazisi Midiyanın ən çox inkişaf etmiş vilayəti olduğundan, onun ictimai-iqtisadi həyatına və mədəniyyətinə Mannanın böyük təsiri oldu" (3, s. 68).

6-cılar "Albaniyada əhalinin təsərrüfat həyatı" adlı mövzunu öyrənərkən əhalinin təsərrüfatı ilə bağlı çoxsaylı məlumatlarla tanış olurlar. "Albanlar əkinçilik, bağçılıq, bostançılıq, üzümçülük, maldarlıqla məşğul olur, arpa, buğda, darı yetişdirirdilər" (3, s. 91). Şagirdlər Albaniyada dulusçuluğun inkişafını mənimsəyirlər.

Arxeoloji tədqiqatlar göstərir ki, əhalinin təsərrüfat həyatında və məişətində saxsı məmulatı geniş yer tutmuşdur. Sənətkarlar gildən tikinti materialı (kirəmit, kərpic), müxtəlif qablar, insan və heyvan fiqurları hazırlayır və dulus kürələrində bişirirdilər.

7-ci sinif Azərbaycan tarix dərsliyində "Feodal münasibətlərin inkişafı" mövzusu keçirilərkən insanların məşğuliyyəti, iqtisadi vəziyyəti barədə məlumatlar verilməlidir. Erkən orta əsrlərdə mövcud olan torpaq mülkiyyəti formalarını əks etdirən sxem qura bilərik. Müəllim şagirdlərə natural təsərrüfatın mahiyyətini açıqlamalı, feodal, islahat, can vergisi kimi terminləri izah etməlidir. Xəritədə feodal dövlətlərinin əraziləri, paytaxtları, sərhədləri, inkişaf etmiş şəhərlər və s. göstərilməlidir. Müəllim əsas iqtisadi məsələləri lövhədə yazmalı, şagirdlərə anlaşıqlı olmayan iqtisadi terminlərin izahını verməlidir. BİBÖ cədvəli ilə şagirdlərə orta əsr şəhərləri haqqında məlumat vermək olar. Şagirdlər təqdimatlar hazırlaya bilərlər. Bu dərslikdə verilən Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi dövlətinin dövründə mövcud olan vergiləri, inkişaf etmiş təsərrüfat sahələrini əks etdirən cədvəl və sxemlərlə ümumiləşdirilməlidir. Şagirdlərə "Monqolların üçüncü yürüşündə yaranmış dövlət" mövzusu öyrədilərkən Qazan xanın islahatları və onun iqtisadiyyata təsirinin aşağıdakı sxemlə mənimsədilməsi xüsusi didaktik əhəmiyyət kəsb edir.




XV əsrdə mövcud olan torpaq mülkiyyət formaları və vergiləri əks etdirən sxem qismən çətin mənimsənilən məsələlərin səmərəli mənimsənilməsinə şərait yaradır.

"Mərkəzləşdirilmiş vahid Azərbaycan dövləti" mövzusunun tədrisində şagirdlər Səfəvi dövlətinin iqtisadi həyatı haqqında materiallarla tanış olurlar. Müəllim şagirdlərə Venn diaqramı ilə Ağqoyunlu dövləti və Səfəvi dövlətinin mövcud olduğu dövrdə olan torpaq mülkiyyət formalarını müqayisə etməlidir. Bu məqsədlə sağ tərəfdə Ağqoyunlu dövlətinə aid olan torpaq mülkiyyət formaları, sol tərəfdə isə Səfəvi dövlətinə aid olan torpaq mülkiyyət formaları yazılır. Tiyul və soyurqalın fərqləri müəyyənləşdirilməlidir. Bunu cədvəl quraraq da göstərmək olar. "Tiyul dövlətə xidmət müqabilində məmurlara bağışlanan torpağın verdiyi gəlirin müəyyən hissəsini özünə götürürdü. Tiyul şərti torpaq idi və yalnız şahın icazəsi ilə irsən keçə bilərdi" (4, s. 117).

**Elmi nəticə.** Ümumtəhsil məktəblərində Azərbaycan tarixinin tədrisində iqtisadi məzmunlu mövzuların tədrisində iqtisadi məzmunlu mövzuların sxemlər, cədvəllər, diaqramlar və İKT vasitələrindən istifadə etməklə tədrisi təlimin səmərəliliyini artırır, şagirdlərdə məntiqi təfəkkürün inkişafına zəmin yaradır.

**Problemin aktuallığı** ondan ibarətdir ki, tarix kurslarında iqtisadi məzmunlu mövzuların tədrisi şagirdləri ayrı-ayrı dövlətlərin təsərrüfat həyatı ilə tanış etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Ayrı-ayrı xalqların iqtisadi həyatı geniş tədqiq edilsə də, bu mövzuların tədrisi üsullarının tədqiqi bir qədər diqqət mərkəzindən kənarda qalmışdır.

**Problemin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, məqalədə irəli sürülən fikir və müddəalardan tarixin tədrisi metodikası üzrə tədqiqat aparan mütəxəssislər faydalana bilərlər.

**Problemin praktik əhəmiyyəti** ondan ibarətdir ki, respublikamızın ümumtəhsil məktəblərində fəaliyyət göstərən çoxsaylı tarix müəllimlərimiz gündəlik pedaqoji fəaliyyətlərində həmin məqalədə əldə olunan nəticələrdən istifadə edə bilərlər.

## Ədəbiyyat:

1. Mahmudlu Y., Cabbarov H., Hüseynova L. Azərbaycan tarixi - Ata yurdu: Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün dərslik. Bakı: Təhsil, 2012.
2. Əmirov M. M, Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası, Bakı: ADPU-nun nəşri, 2014.
3. Əliyev V., Babayev İ., Cəfərov H., Məmmədova A. Azərbaycan tarixi: Ümumtəhsil məktəblərinin 6-cı sinfi üçün dərslik, Bakı: Təhsil, 2013.
4. Mahmudlu Y., Ağayev S., Xubyarov B., Əlişova H., Hüseynova L., Bəhramova S, Azərbaycan tarixi. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün dərslik. Bakı: Təhsil, 2014.

**E-mail:** ezize.q-va@mail.ru
**Rəyçilər**: *ped.ü.elm.dok., prof.* M.M. Əmirov,
*dos.*Q.İ. Bəşirov
**Redaksiyaya daxil olub:** 25.11.2018